Tarix və onun problemləri, №1 2010

V.ƏLIYEVA
*AMEA-nın A.A.Bakıxanov adınaTarix institutunun aspirantı*

# FEVRAL INQILABININ LƏNKƏRAN-MUĞAN BÖLGƏSINƏ TƏSIRI

1917-ci il fevral inqilabı Rusiyada böyük ümidlər dövrünü açdı. Bütün Rusiya xalqları kimi azərbaycanlılar da Müvəqqəti Hökumətə ilkin olaraq etimad göstərirdilər. M.Ə.Rəsulzadə eyni zamanda redaktoru olduğu «Açıq söz» qazetində 1917-ci ilin aprelində dərc etdiyi məqalədə yazırdı: «Müvəqqəti Hökumət camaatın etimadına müzəffər bir hökumətdir» [1]. Beləliklə Azərbaycanda ümumən vəziyyət göründüyü kimi idi. Ancaq milli qüvvələrin əksinə olaraq Bakı və bölgələrdə bolşeviklərin fəaliyyəti tamamən əks istiqamətdə idi. XZK-nin elan edilməsi xəbəri bütün Azərbaycana yayıldı. 10 mart 1917-ci il tarixində Müvəqqəti Hökumətin başçısı knyaz Lvovun məktubu Lənkəran şəhər ictimai idarəsinə də gəlib çatdı. Məktubla tanış olduqdan sonra idarə özünü müvəqqəti icraiyyə komitəsi elan etdi [2]. Bir qədər sonra qəza icraiyyə komitəsinə seçkilər başlandı. Ruslarla birgə icraiyyə komitəsinə xeyli azərbaycanlı seçildi. Onlardan əsgər xan Talışinskinin, Tağı bəy Bayrambəyovun, Əsədxan Talışinskini və digərlərinin adlarını çəkmək olar. Azərbaycanlıların siyasi baxımından uğrunda mübarizə apardıqları amal Lənkəran-Muğan bölgəsində hakimiyyəti milli qüvvələrin nəzarətinə keçirmək idi. Bu məqsədin həyata keçirilməsi üçün Lənkəran-Muğan bölgəsində milli qüvvələrin təşkilatlanmasına böyük ehtiyac vardı. Həmin ehtiyacdan doğaraq Lənkəranda «Ümid» cəmiyyəti təsis edilmişdi [3].

Lənkəran qəzasının özünəməxsus xüsusiyyətləri vardı. Bu xüsusiyyətlər həm etnik, həm də siyasi politra ilə bağlı idi. Həmin özəlliklər tarixi proses ərzində formalaşmışdı. Digər bölgələrdən fərqli olaraq Lənkəran-Muğan bölgəsində milli qüvvələrin fəaliyyəti qarşısında maneə müxtəlif dövrlərdə bölgədə məskunlaşdırılmış rus kəndliləri idilər. Rusiya İmperiyası sərhədyani və geostrateji bölgələrdə özünə dayağın formalaşdırılması üçün XIX əsrin 40-cı illərindən başlayaraq ucqarlara, o cümlədən Lənkərana rusları köçürməyə başlamışdı. Lənkəran-Muğan bölgəsi də adı çəkilən geostrateji bölgələr kateqoriyasına daxil idi. Bölgə Rusiyanın cənub istiqamətində tarixi düşmən saydığı İranla həmsərhəd idi. Bütün deyilənləri nəzərə alaraq Lənkəran qəzasında Vel, Nikolayevna, Privolnoye, Prişib, Andreyevna, Astraxanovka, Novoqdovka kimi kəndlərin əsası qoyuldu [4, 80]. Məskunlaşdırılan rus kəndləri Azərbaycan üçün bir potensial təhlükəyə çevrildilər. Çünki onları bura köçürən Rusiya imperiyası köçkünlər üçün mərkəzdən daha yaxşı iqtisadi şərait hazırlayaraq, onları dövlət torpaqlarında məskunlaşdırmışdı [5,11-21, 33-52].

Lənkəran qəzasının Azərbaycan üçün əhəmiyyətini artıran məsələlərdən biri də həmin bölgənin sıx məskunlaşmaya malik olması idi. Yerli əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdilər. Əsrin birinci on illiyində Lənkəran qəzasında təxminən 154 min əhali yaşamaqda idi. Lənkəran qəzasının mərkəzi Lənkəran şəhəri idi. Qeyd edildiyi kimi 9 mart 1917-ci ildə Zaqafqaziyanı idarə etmək üçün YKZ formalaşdırılmışdı. Onun Lənkəran qəzası üzrə nümayəndəsi Nəcəfov idi. Nəcəfovun üzərinə bölgədə bir sıra məsələləri həll etmək düşürdü. Çünki Lənkəran qəzasında vəziyyət heç də ürəkaçan deyildi. Bəzi mətubat orqanlarında belə bir fikir söylənilirdi ki, köhnə hakimiyyət getsə də, yenisi hələ gəlməmişdi [6, 1 avqust 1917]. Burada bir sıra səbəblər var idi.

Həmin səbəblərdən ən başlıcası o idi ki, bürokratik aparatda işləyənləyənlərin əksəriyyəti köhnə təfəkkürlü idilər. Onlar çar dövrünü nastalgiya hissi ilə xatırlayırdılar

və islahatlardan qorxurdular. Ən azından ona görə ki, öz mövqelərini itirmək istəmirdilər. Əslinə baxanda Müvəqqəti Hökumətin özü də kəskin addımlar atmaq imkanında deyildi. Müvəqqəti Hökumət üçün ucqarlarda islahatlar və demokratikləşmə Rusiyaya xələl gətirməyəcək qədər inkişaf etməli idi. Bürokratik aparatın islah edilməsi arzulayan milli qüvvələr isə məmurları dərhal yeni dünya görüşlülərlə əvəz etmək imkanına malik deyildilər. Belə bir vəziyyətdə bolşeviklər sosial problemlərdən istifadə edərək təbliğatlarını gücləndirirdilər. Ancaq demək olmaz ki, bolşeviklərin bütün fikirləri yalnış idi. Həqiqətən də bəzi mülkədarlar siyasi savadsızlıqlarının milli ideyaya mənfi təsir edəcəyinin fərqinə varmadan əhaliyə qarşı sosial ədalətsizliklərə yol verirdilər. Mülkədarların siyasi cəhətdən yetkin olmayan bu cür davranışlar yol verməsi milli təfəkkürlü ziyalıların və ictimai-siyasi xadimlərin fəaliyyətlərinin nəticələrinə də mənfi təsir edirdi»[7].

Dövrün mətbuatı ilə tanış olduqdan sonra məlum olur ki, Lənkəran qəzasının əhalisi sosial problemlərin artmasından çox narahat idi. Əhali istəmirdi ki, çar dövründə təyin olunmuş məmurlar öz iş yerlərində qalsınlar. Çünki həmin məmurların bir çoxu qəti olaraq inqilabi əhval-ruhiyəyə malik deyildilər. Bundan başqa sosial problemlərin həlli istiqamətində elə bir fəaliyyət göstərmirdilər. Lənkəran qəzasında məmur özbaşnalıqlarından doğan iğtişaşlardan XKZ də narahatlığını Bakı İcraiyyə Komitəsinə göndərdiyi teleqramda bildirmişdir. Lənkəran qəzasında yerli özünü idarə orqanlarının formalaşması milli qüvvələrin diqqət mərkəzində idi. Milli qüvvələr yerli özünü idarə orqanlarının formalaşdırılması zamanı Lənkəran qəzasının azərbaycanlı əhalisinin siyasi aktivliyini artırmaq istəyirdilər.

Həmin fəaliyyətin məntiqi davamı olaraq 1917-ci ilin martında yerli özünü idarə orqanlarının təşkilində iştirak etmək üçün Azərbaycan milli qüvvələrinin nümayəndələrindən olan M.Ə.Rəsulzadə Lənkəran qəzasına gəlmişdi. Azərbaycanlıların bölgədə fəaliyyətinin siyasi mübarizə əsaslarına keçirilməsi zəruri idi. Bu zərurəti azərbaycanlıların real ehtiyatları doğururdu. Onu qeyd etmək lazımdır ki, siyasi mübarizə mütəşəkkilliyin bir təzahürü idi. Zaman-zaman Lənkəran qəzasının bəzi yaşayış sahələrində əhalinin öz iradəsini təmin etmək cəhdləri nəzərə çarpırdı. Belə faktlardan biri Qarabucaq sahəsində baş vermişdi. Əhali qərar çıxarmışdı ki, onların maraqlarına uyğun olmayan fəaliyyət göstərən pristav və kəndxuda işdən azad edilsin [8].

Lənkəran qəzası da bütün ölkə kimi iki hakimiyyətlilikdən kənarda qala bilməmişdi. 1917-ci ilin martında əsgərlər və sərhədçilərin təşəbbüsü ilə Fəhlə və Əsgər Deputatları Soveti təşkil edilmişdi. Ancaq Lənkəran qəzası üçün səciyyəvi vəziyyət ondan ibarət idi ki, 1917-ci ilin mart ayının ortalarında ona Müvəqqəti Hökumət tərəfdarları nəzarət edirdilər. Sovetin sədri Q.Apesov idi [9]. Qəza kommisarı Sultan bəy Qulubəyov idi. Çox qəribədir ki, bolşeviklər bölgədə möhkəmlənməyi mühüm hesab edirdilər. Onların fəaliyyəti əsasən sərhəd dəstələri arasında hiss olunurdu. Həmin dəstələrlə əlaqə Astara, Ənzəli və Bakı vasitəsilə həyata keçirilirdi [10]. Bolşeviklərin sərhədçilər arasında nüfuzlarını artırmaq istiqamətində apardıqları işlər əslində bu geostrateji bölgədə əhali yerdəyişməsinə nəzarəti ələ keçirməkdən ibarət idi. Bolşeviklər artıq açıq fəaliyyət göstərə bilirdilər. Bu onların imkanlarını artırırdı.

1917-ci il fevral inqilabından sonra Lənkəran qəzasında baş vermiş mühüm hadisələrdən biri də 25-26 may (7-8 iyun) 1917-ci il tarixlərində Muğan və Şirvan düzləri kəndlilərinin 1-ci qurultayi olmuşdur. Qurultayın işində əksəriyyəti müsəlmanların, qalanı isə rus-köçkünlərin nümayəndələri olan 122 nəfər iştirak etmişdi. Mətbuatda gedən məlumatlardan aydındır ki, burada əsasən sosial problemlər müzakirə olunmuşdu. Ərzaq məsələsi problem kimi önə çəkilmişdi. Bakı Quberniyasının ərzaq komitəsinə ərzaq probleminin aradan qaldırılması istiqamətində təkliflər verilmişdi. Amma məlum olur

ki, qurultayda torpağın müsəlmanlara, yoxsa ruslara məxsus olması istiqamətində mübahisəli məqamlar da olmuşdur. Qurultay iştirakçıları kəndli ittifaqlarının formalaşdırılması zərurəti fikirlərini də gündəmə gətirmişdilər. Ancaq sonradan ortaya gətiriləcək faktlar onu sübut edir ki, rus – köçkünlər heç də həmişə səmimiyyət göstərməmişlər.

Lənkəran-Muğan bölgəsində baş verən hadisələr onu göstərirdi ki, 1917-ci il fevral inqilabı əslində ona yönəlmiş ümidləri doğrultmadı. Belə ki, inqilabı onun məğzinə cavab verən islahatlar tamamlamalı idilər. Fəqət fevral inqilabının davamı bu gözləntiləri həyata keçirmədi. Fevral inqilabından sonra məsələlərin yalnız bir qismi həll olundu. Lazımi islahatların həyata keçirilməsinə fikir verilmədi. Daha doğrusu ucqarlarda islahatlar lazımi formada aparılmadı. Rus millətçiliyi öz mahiyyətini fevral inqilabından sonra dəyişmədi. Belə ki, milli azlıqlara lazımi diqqət göstərilmədi. Ən başlıcası isə aqrar məsələ həllini tapmadı. Aqrar məsələsinin həllini tapmaması kifayət qədər ərzaqın istehsalına imkan vermirdi. Ərzaq çatışmazlığı kütləvi sosial narazılıqlara səbəb olurdu. Belə bir vəziyyətdə sosial iğtişaş və narazılıqlardan bolşeviklər bəhrələnirdilər. Onlar sosial problemlərin həllinə dair vədlər verir, müəyyən qism əhali kütləsini öz tərəflərinə çəkməyə müvəffəq olurdular. Əhalinin bolşeviklərin bəzi şüarlarına inanması yerlərdə məmur özbaşnalıqlarından qaynaqlanırdı. Eyni zamanda mülkədarların bir qismində siyasi savadsızlıq və ideoloji naqislik bolşeviklərin şüarlarına zəmin olurdu. Əlbəttə bu heç də o demək deyildi ki, bolşeviklər hakimiyətə gələcəkləri təqdirdə əhalinin sosial problemlərini həll edəcəklər.

Müvəqqəti Hökumətin ona yönəlmiş ümidləri doğrultmaması kəndlilərin arasında bu hökumətə taxıl verilməməsi haqqında fikirlər yayılmağa başlamışdı. Mənbələr onu deməyə əsas verir ki, bu cür kəndlilərin cəzalandırılıb cəzalandırılmaması baxımından fikirlər müxtəlif idi. 11 sentyabr 1917-ci ildə Lənkəran qəza İcraiyyə Komitəsinin iclası keçirilmişdi. İclasda taxıl verməkdən imtina edən kəndlilərin cəzalandırılması fikirləri səslənmişdi. 6 nəfər əsgər buna qarşı çıxmış və iclası tərk etmişdilər.

Beləliklə onu demək olar ki, Azərbaycanın bir bölgəsi olan Lənkəran-Muğan bölgəsində baş verənlər azərbaycanlılara maddi mənfəət baxımından heç nə vermədi. Amma azərbaycanlılar bir daha onu gördülər ki, Rusiyadan artıq səadətli bir çıxış yolu gözləmək olmaz. Milli və sosial problemlərin həlli milli müstəqilliyin əldə olunmasındadır. Fevral inqilabı həmçinin bolşeviklərin canlanmasına gətirib çıxardı. Leqal fəaliyyətə başlayan bolşeviklər öz şəbəkələrini genişləndirməyə müvəffəq oldular. Onların Qafqazda müttəfiqləri isə ermənilər oldu. Bu koalisiya oktyabr çevrilişindən sonra azərbaycanlıların soyqırımına imza atdı. Lənkəran-Muğan bölgəsi də həmin cinayətkar irticadan böyük ziyanlar gördü.

## *ƏDƏBIYYAT:*

1. "Açıq söz", 21 aprel 1917 № 451
2.Əlizadə N. Lənkəran qəzası zəhmətkeşlərinin sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizə tarixindən. B. 1963
3.Qazeta «Kaspiy» 12 aprel 1917 № 80
4.Nayda S. Revolöüionnoe dvijenie v üarskom flote. İzd. ANSSSR M-P 1948
5.Materialı selğskoxozəystvennoy perepisi 1917 qoda po Bakinskoy Qubernii. Prilojenie k jurnalu «Narodnoe xozəystvo» 1921, № 1921, № 2-3,
6.Qazeta «İzvestiə Bakinskoqo Soveta», 1 avqust 1917
7.«Hцmmяt ti, 21 noyabr 1917
8.Qazeta «Kaspiy», 25 may 1917 № 113
9.Qazeta «Kaspiy», 25 mart 1917 № 69
10.Jurnal «İstoriçeskiy arxiv» 1956 q, № 5

В.Ш.АЛИЙЕВА
**ВЛИЯНИЕ ФЕВРАЛЬСКОЙ РЕВОЛЮЦИИ НА ЛЯНКЯРАНО-МУГАНСКИЙ РАЙОН**

В статье рассказывается о событиях, произошедших в Лянкярано-Муганском регионе после февральской революции. Одновременно говорится об объявлении создания Временного исполнительного комитета и избрании его членов, а также о деятельности упомянутого комитета. Автор рассказывает о приезде в марте 1917 года в Лянкяранский уезд

М.Э. Расулзаде - одного из представителей азербайджанских национальных сил.

V.SH.ALIYEVA
**IMPACT OF FEBRUARY REVOLUTION ON LANKARAN-MUGAN REGION**

The article tells about developments in the Lankaran-Mugan region following the February revolution. At the same time, it provides information about establishment of the interim executive committee, its activity and elections to the committee. The article narrates on the arrival of one of representatives of the Azerbaijan national forces M.E. Rasulzadeh in Lankaran province in March 1917.

***Rəyçilər: t.e.n.K.N.İsmayılov, t.e.d.Q.Ə.Əliyev.***

***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycan Xalq Cümhuriyyətinin tarixi» şöbəsinin 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №07).***